# Həsən XASIYEV-70



Hörmətli Həsən müəllim!

Sizi - istedadlı şair-tərcüməçini, yazıçı-publisisti 70 illik yubileyiniz münasibətilə Təbrik edirik.

Siz 18 yanvar 1952-ci ildə Qusar rayonunun Zindanmuruq kəndində anadan olmusunuz. 1969-1974-cü illərdə indiki Azərbaycan Dövlət Aqrar Universitetində oxumusunuz. Sonra Respublika Jurnalist Sənətkarlığı İnstitutunda təhsilnizi davam etdirmisiniz. 1975-ci ildən 2018-ci ilə kimi müxtəlif təşkilat, müəssisə və şirkətlərdə baş mütəxəssis, baş redaktor, baş elmi işçi vəzifələrində işləmisiniz.

Siz bədii yaradıcılığa hələ orta məktəbdə oxuyarkən başlamısınız. İlk mətbu şeiriniz "Son zəng" 1968-ci ildə "Qızıl Qusar" qəzetində dərc olunub. "Ocağın odu", "Şahdağ sovqatı", "Ömür hesabat istər", "Yadigar səs", "Tanrı tanıyır məni" və başqa ktablarınız sizə geniş oxucu auditoriyası qazandırmışdır. "Azərbaycan ədəbiyyatında Qusar mövzusu" monoqrafiyanız dəyərli tədqiqat əsəri kimi respublikamızın elmi, ədəbi-mədəni ictimaiyyəti tərəfindən böyük maraq və razılıqla qarşılanmışdır.

Ehtiyatda olan baş leytenant kimi Vətən müharibəsindən bəhs edən "Qarabağ harayı", "Oğullar" və "Fəxrəddin" poemaları yazıb çap etdirmisiniz. Milli və ümumbəşəri mövzulara müraciət etdiyinizdən, özünəməxsus yola, üsluba, dəst-xəttə malik olduğunuzdan lirik, romantik və satirik şeirləriniz çoxlarının ürəyinə yol tapmışdır. Tərcüməçilik sahəsində də sanballı töhfələriniz var. Azərbaycan poeziyasından ləzgi dilinə, ləzgi ədəbiyyatından Azərbaycan türkçəsinə kitablar tərcümə edirsiniz. Azərbaycançılıq məfkurəsini, milli-mənəvi dəyərləri, ədəbiyyatımızı hər yerdə yorulmadan və böyük şövqlə təbliğ edirsiniz. Əsas qayəsini Vətən sevgisi, yurda heyranlıq, məhəbbət, həmrəylik, gözəllik və qəhrəmanlıq duyğusu təşkil edən əsərləriniz ölkəmizdən kənarda müxtəlif dillərə tərcümə edilərək qardaş töhfəsi kimi qarşılanır və sevə-sevə oxunur.

Siz Azərbaycan-Dağıstan ədəbi-mədəni əlaqələrinin inkişafında, dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsində mühüm rol oynayırsınız. Hər iki respublikanın ədəbi orqanlarında dərc olunmuş və oxucular tərəfindən razılıqla qarşılanmış "S.Stalski və Azərbaycan", "S.Vurğun və Dağıstan" adlı əsərləriniz buna əyani sübutdur. Siz həmçinin şimal bölgəsinin ədəbi mühitində aparıcı və əvəzsiz bir rola malik yazarlardansınız. Həyat və yaradıcılığınız region mədəniyyəti tarixində parlaq səhifə sayıla bilər.

Kütləvi tirajla çap olunmuş 12 kitab müəllifi kimi yaradıcılığınızla bağlı görkəmli sənət adamları - yazıçılar, şairlər və alimlər maraqlı fikirlər, xoş sözlər söyləmişlər. Siz həm də multikulturalizm və tolerantlıq ənənələrinə sadiq yaradıcı bir ziyalı kimi tanınırsınız.

Keçmiş SSRİ-nin müxtəlif şəhərlərində yaradıcılıq festivallarının ədəbi müsabiqələrinin, poeziya günlərinin iştirakçısı, laureatı olmusunuz, medal, diplom, qiymətli hədiyyələrini almısınız. Azərbaycan yazıçılarının XII qurultayına nümayəndə seçilmisiniz. Xidmətlərinizə görə Azərbaycan Respublikasının Fəxri Mədniyyət işçisi adına və döş nişanına "Qızıl qələm", "Araz" ali ədəbi mükafatlarına layiq görülmüsünüz. Mədəniyyət və Turizm Nazirliyinin, Respublika "Bilik" cəmiyyətinin, Qusar rayon İcra Hakimiyyəti başçısının Fəxri fərmanları ilə təltif edilmisiniz. Bütün bunlar ədəbiyyatımızın və mədəniyyətimizin inkişafındakı səmərəli əməyinizi əks etdirir.

Hörmətli Həsən müəllim!

Sizi 70 illik yubileyiniz münasibətilə bir daha təbrik edir, sizə uzun ömür, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq

**Azərbaycan Yazıçılar Birliyi**